Salam, əziz Röya

Mən Nelli, 20 yaşım var.

Gözəl məktubuna görə təşəkkür edirəm.

Məktubu oxuyanda səni fikirlərimdə təsəvvür etməyə çalışrdım. Əgər indi eynisini sən etməyə çalışırsansa mən əsmər, qara, qıvırcıq saçlı bir qızam. Mən də ilk dəfə tanımadığım birinə məktub yazıram. Ümidvaram ki, bir gün bəlkə Gürcüstanda, Ukraynada ya da başaq bir dövlətdə, kim bilir bəlkə də Ermənistanda və yaxud Azərbaycanda şəxsən səninlə görüşəcəyəm. Əvvəllər də mən azərbaycanlı gənclərlə görüşmüşəm və onlarla şəxsən danışmağa imkanım olmuşdu. İcazə ver sənə bir gözəl şey deyim: mən onlardan yalnız yaxşı və müsbət təəssürat almışam.

Elə sənin kimi mən də inanıram ki, bir gün hər şey bitəcək, dünyada sülh olacaq, mənim daha çox imkanım olacaq ki, azərbaycanlı dostlarım olsun və biz ikimiz bir–birimizin məmləkətlərinə səfər edə biləcəyik. Yaxın keçmişdə mən Ukraynada bir konfransda mədəniyyət gecəsində iştirak edirdim. İştirakçılar bütün işirakçı ölkələrin adlarını qarışdırıb qutuya atmışdılar və yalnız bir kağız parçası götürməli idik. Kağızda yazılan ölkənin milli rəqsini oynamaq lazım idi. Mənim kağızımda Azərbaycan yazılmışdı. Əslində mən çox ruhlanmışdım və maraqlı idi ki, sizin ənənəvi rəqslərindən birini oynamalı idim. Rəqsin adı "Naz eləmə"–idi.

Mən onu partnyorla ifa etməli idim, və mənim partnyorum gürcü idi. Biz gördük ki, üçümüzün ənənəvi rəqs hərəkətləri, qızların əllərinin nazik hərəkətləri, oğlanların əl çalmaları bir–birinə çox oxşayır. Erməni və gürcü azərbaycan rəqsi ifa edirlər, gülməli deyilmi? O gün mən anladım ki, millətlərimizin mədəniyyətləri, rəqsləri bir–birinə çox bənzəyir. O rəqsi ifa edəndə mən özümə tanış və isti hisslər keçirdim.

Mən düşündüm ki, əgər bir gün fərqlərimiz əvəzinə oxşarlıqlarımıza mərkəzlənə bilsək, biz daha ideal və sakit dünyada yaşayarıq. Əgər sülh okeandırsa, mən onun bir damcısı olmaq istəyirəm.

Dostum, mən səninlə razıyam ki, biz keçmişin təkrar olunmaması üçün əlimizdən gələni etməliyik. Mən istəyirəm ki, biz inanaq ki, nəsillərimiz sülh səfirləri olacaqlar.

Vaxt ayırdığına görə təşəkkür edirəm. Ümidim var ki, bir gün şəxsən səninlə görüşüb daha yaxşı tanıyacağam səni. İndi isə elektron ünvanımı yazıram. Səndən xəbər alsam, sevinərəm :)

Sevgi ilə sənin ilk erməni dostun